...Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir.

**Heydər ƏLİYEV,**
**Ümummilli lider.**

# Şuşa dünyada özünəməxsus mədəniyyət mərkəzlərindən biri kimi tanınır



## S.A.Mirzəyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Səfa Abbas oğlu Mirzəyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 may 2022-ci il.**

*Mənəvi varlığımızın ayrılmaz bir hissəsi olan Şuşa üç yüz ilə yaxındır ki, Azərbaycanın şanlı tarixinə şahidlik edir. Bu tarix keşməkeşli, qanlı-qadalı, enişli-yoxuşlu bir tarix olaraq xalqımızın qəhrəmanlıq salnaməsidir. Qarabağın incisi olan bu şəhər qədimlik, məğrurluq simvolu olmaqla bərabər, həm də milli mədəniyyətimizin mərkəzi, poeziyamızın və musiqimizin beşiyidir.*

Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi özündə yaşadan, Azərbaycanın mədəniyyət mərkəzi sayılan Şuşa xalqımızın həyatında hər zaman özünəməxsus rol oynamışdır. Şuşa qalası mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək tarixin sərt sınaqlarından keçmiş, dəfələrlə xarici hücumlara, müdaxilələrə məruz qalmışdır. Lakin bu qədim qala şəhəri heç bir vaxt Azərbaycan ruhunu itirməmişdir.

Mənəvi pasportu olan Daşaltı dərəsi, igidlər oylağı Cıdır düzü, saysız-hesabsız məmarlıq inciləri Azərbaycan muğamının beşiyi sayılan Şuşanı təkcə ölkəmizdə deyil, bütün dünyada qədim mədəniyyət mərkəzlərindən biri kimi tanıtmışdır. "Şərqin konservatoriyası" adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyli, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələskərov kimi incəsənət xadimlərinin vətənidir.

"...Bir il bundan əvvəl burada başqa musiqi səslənirdi, başqa hərəkətlər edilirdi. O hərəkətlərə görə, bütün cinayətlərə görə düşmən öz layiqli payını aldı. Bundan sonra burada ancaq Azərbaycan musiqisi, Azərbaycanda yaşayan xalqların musiqisi səslənəcək. Doğrudan da, böyük tarixi nailiyyətdir...". Azərbaycan Prezidenti İlham Əliyev bu fikirləri ötən il may ayının 12-də "Xarıbülbül" Musiqi Festivalının ilk günündə jurnalistlərlə söhbəti zamanı demişdir.

Düz 29 il sonra, ötən ilin may ayında Cıdır düzündə "Bayatı-Şiraz"ın əks-sədası ilə gerçəkləşən, nəinki Qarabağa, bütün dünyaya səs salan məşhur "Xarıbülbül" musiqi festivalı "Şuşasız Azərbaycan ola bilməz" mesajını bütün dünyaya yenidən ünvanladı. Həmin gün "Qarabağ şikəstəsi", "Şuşanın dağları", "Cənnətim Qarabağ" Şuşanın daşını-daşını yerindən oynatdı. Milli musiqilərimiz ruhumuzu oxşadı, könül dünyamızı riqqətə gətirdi. İgidlər oylağı Cıdır düzündə yenə çal-çağır, toy-büsat quruldu.

**(davamı 2-ci səhifədə)**

# Şuşa dünyada özünəməxsus mədəniyyət mərkəzlərindən biri kimi tanınır

(əvvəli 1-ci səhifədə)

Şanlı Zəfərimizdən sonra 2021-ci il may ayının 12-də Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalı keçirildi. Festivalın ilk günündə ölkəmizdə yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim edildi. Festivalda xalq və klassik musiqilərdən ibarət proqram, Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi kollektivlərinin çıxışı, bütün etnik qrupların mədəniyyətinin təbliğ olunması müxtəlif etnosların və dini icmaların dinc yanaşı yaşamalarının unikal nümunəsi olan Azərbaycanın hər zaman sülhsevər, birgəyaşayışa önəm verdiyinin, Azərbaycanda tolerantlığın, multikulturalizmin ən yüksək səviyyədə olmasının növbəti nümayişi idi.




İlk dəfə məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildə Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" Festivalında yerli ifaçılarla yanaşı, keçmiş İttifaq respublikalarından Qırğızıstan, Qazaxıstan, Rusiya, Litva və Belarusdan da musiqi qrupları iştirak etmişdir. 1990-cı ildə "Xarıbülbül" festivalı beynəlxalq status almış, ikinci festivalda İttifaq respublikaları ilə yanaşı, Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, Hollandiya, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan kimi ölkələrdən nümayəndələr iştirak etmişdir.

1991-ci ildə keçirilən 3-cü festivala 25 ölkədən 300-ə yaxın iştirakçı qatılmışdı. 1992-ci ildə 4-cü "Xarıbülbül" festivalı mayın 15-də keçirilməli, burada dünyanın 30-dan çox ölkəsindən 500 nəfər iştirak etməli idi. Lakin festival Qarabağ müharibəsinin başlaması və Şuşa şəhərinin mayın 8-də erməni silahlı qüvvələri tərəfindən ələ keçirilməsinə görə ləğv edilmişdi.

44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək Şuşanı erməni işğalçılarından azad etdi. Azərbaycan xalqının həsrətlə gözlədiyi gün gəlib çatdı. Prezident İlham Əliyevin 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri ölkənin mədəniyyət paytaxtı elan edildi. Bu sərəncamla 2021-ci il mayın 12-i və 13-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalı keçirildi. Sayca 4-cü festivalın ilk günündə milli rəqs, muğam sənət nümunələri təqdim olunmuş, Azərbaycanın müxtəlif regionlarını və milli azlıqları təmsil edən folklor kollektivləri çıxış etmiş, müxtəlif illərdə Şuşada lentə alınan azərbaycanlı müğənnilər - Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Şövkət Ələkbərovanın ifalarından ibarət videoçarxlar nümayiş etdirilmişdir. Festivalın ikinci günündə isə Azərbaycan bəstəkarlarının klassik musiqi əsərləri təqdim olunmuşdur. Festivalda çıxış edən dövlət başçısı İlham Əliyev demişdir: "Uzun fasilədən sonra bu il birinci dəfə keçirilən "Xarıbülbül" musiqi festivalı şəhidlərimizin əziz xatirəsinə həsr olunub. Biz bu günü bizim qəhrəman hərbçilərimizə borcluyuq, Azərbaycan xalqına borcluyuq. Xalq birləşdi, xalq həmrəylik göstərdi, bir yumruq kimi birləşdi və bu Qələbəni Azərbaycan xalqı qazandı. Bu, bizim hamımızın qələbəsidir... 300-dən çox şəhər və kənd döyüş meydanında işğalçılardan azad edildi və Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır".

44 günlük Vətən müharibəsində xalqımız zəngin dövlətçilik və hərb tariximizdə yeni səhifə açdı. Daha bir şanlı, qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun düşməndən geri aldığı Azərbaycanın muğam beşiyi, milli musiqimizin, poeziyamızın qədim abidəsi Şuşada ermənilərin törətdikləri vandalizm əməllərinin nəticələrini qısa müddət ərzində aradan qaldırmaq, Qarabağı və ətraf rayonları gülüstana çevirmək məqsədilə bərpa və yenidənqurma işləri sürətlə davam edir. Bu yerlər tarixiliklə müasirliyin vəhdətində tikilir, bərpa edilir. Azərbaycanın dilbər guşəsi olan Şuşa bütün dünyanı heyrətə gətirəcək, aləmi heyran qoyacaq dərəcədə yenidən qurulur.

Qəhrəman oğullarımızın hünər meydanı Şuşa hələ uzun illər dillərdə dastan olacaq. Uzun illər bu yerlərdə musiqi festivalları, poeziya günləri düzənlənəcək.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2022.- 12 may.- S.1;2.